# “Azərbaycançılıq ideologiyası kontekstində hərbi vətənpərvərliyin təbliği"

**"Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidirlər. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik". Bu yaxınlarda işıq üzü görmüş: "Azərbaycançılıq ideologiyası kontekstində hərbi vətənpərvərliyin təbliği" adlı kitabın "Ön söz"ü ulu öndər Heydər Əliyevin məhz bu fikirləri ilə başlayır.**

Qeyd edək ki, nəfis tərtibatda çap olunan kitabın müəllifləri Samir Rzayev və Kamal Sərdaroğludur. Kitab müasir Azərbaycan Respublikasının qurucusu, azərbaycançılıq məfkurəsinin yaradıcısı, ümummilli lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunub, orta və ali təhsil müəssisələrində gənclərə hərbi vətənpərvərlik tərbiyəsinin aşılanması məqsədilə yazılmışdır. Nəşrdə ümummilli lider Heydər Əliyevin müstəqil dövlətimizin banisi kimi azərbaycançılıq məfkurəsinin təbliği sahəsində fəaliyyəti geniş şəkildə işıqlandırılıb.

Müasir dünyamızda, xüsusilə də qloballaşmanın geniş vüsət aldığı bir dövrdə gənclərimizə milli-mənəvi dəyərlərimizin və vətənpərvərlik hisslərinin təbliğ edilməsinin vacibliyini nəzərə alan müəlliflər ulu öndər Heydər Əliyevin Azərbaycan gəncliyinin sağlam ruhda yetişdirilməsi naminə gördüyü işlərdən, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi dövründə gənclərimizin yüksək vətənpərvərlik ruhunda formalaşması istiqamətində həyata keçirilən tədbirlərdən geniş şəkildə bəhs edir, bizə Zəfər sevincini yaşadan qəhrəmanlarımızdan qürurla söz açırlar.

Professorlar Eldar İbrahimov, Eldar Quliyev, filologiya üzrə fəlsəfə doktoru, dosent, şair-publisist Elxan Yurdoğlunun rəyləri də kitabda yer alıb.

Kitabda qarşıya qoyulan əsas məsələlərdən biri azərbaycançılıq ideologiyasına sadiq qalaraq gənclərdə vətənpərvərlik ruhunu artırmağın yollarını müəyyən etməkdir və




müəlliflər haqlı olaraq idmanın da bu sahədə müəyyən rol oynadığını diqqətə çatdırmağa çalışıblar.

"Azərbaycançılıq ideologiyası kontekstində hərbi vətənpərvərliyin təbliği" kitabı ali məktəb tələbələri, pedaqoqlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş dəyərli vasitədir.

**Musa FİRİDUNOĞLU,**
**"Respublika".**